ISSN 1810-911X

# İPƏK YOLU

AZƏRBAYCAN UNİVERSİTETİNİN ELMİ JURNALI

№ 4. 2014






- Gənclərin həyatı gələcəyin təməlidir
- İqtisadiyyatın dövlət tənzimlənməsinin bir sıra elmi, nəzəri-metodoloji məsələləri və Azərbaycan modelinin xüsusiyyətləri
- Turizmin növləri kontekstində Azərbaycanın turizm sektorunun rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi
- Qloballaşma transmilli şirkətlərin inkişaf amili kimi
- Sahibkarlığın maliyyə infrastrukturunun inkişafının əsas istiqamətləri
- Tədiyyə balansı və onun tərtib olunmasının nəzəri prinsipləri
- İntellektual kapitalın müasir vəziyyəti və inkişaf meyilləri
- Neft gəlirləri, büdcə xərcləri və inflyasiya
- Qanuni bank fəaliyyətinə manə olmanın ümumi cinayət-hüquqi xarakteristikası: cinayətin obyektiv cəhəti
- İnsan resursları departamentinin funksional inkişaf dinamikası və ona təsir edən amillər
- Klaster təşəbbüslərinin reallaşdırılmasının regional-iqtisadi inkişafa təsiri
- "Kitabi-Dədə Qorqud"un dilində mürəkkəb sintatik bütövlər
- Neo-viktorian romanı postmodern janrı kimi
- Çağdaş dövrdə roman janrının inkişaf xüsusiyyətləri
- Amerika ədəbiyyatında O.Henrinin yeri
- Avropada İslamın meydana gəlməsinin sosial-fəlsəfi təhlili
- Beynəlxalq təhlükəsizlik sistemi və terrorizm
- Reklamların formalaşma tarixindən
- Ernest Hemequey Azərbaycan dilində
- Dialektlərin spesifik xüsusiyyətləri, coğrafi dialektlər
- İnterferensiya linqvistik tədqiqatların obyekti kimi
- ABŞ və Rusiyanın İranın nüvə proqramına dair mövqeyi
- İsrail və onun ABŞ-da lobbisi: Dayaq, yoxsa yük?
- Vergi sistemi və iqtisadiyyatda vergilərin rolu


www.au.edu.az

ISSN 1810-911X

# İPƏK YOLU

İPEK YOLU ✦ ИПЕК ЙОЛУ

TƏSISÇI: AZƏRBAYCAN UNIVERSITETI

PUBLISHED: AZERBAIJAN UNIVERSITY

УЧРЕДИТЕЛЬ: УНИВЕРСИТЕТ АЗЕРБАЙДЖАН

№ 4. 2014

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə № 472*

**REDAKSIYA HEYƏTI:**

**Akif Musayev**
***(baş redaktor)***

**Eldar Qəhrəmanov**
**Dünyamalı Vəliyev**
*(baş redaktorun müavinləri)*

**Ziyad Səmədzadə**
**Teymur Bünyadov**
**Asəf Hacıyev**
**Əli Nuriyev**
**Səlahəddin Xəlilov**
**Yusif Məmmədov**
**Telman Əliyev**
**Vilayət Quliyev**
**Xaləddin İbrahimli**
**Rövşən Quliyev**
**Habil Qurbanov**
**Mais Əliyev**
**Həsən Əlibəyli**
**Tofiq Vəliyev**
**Akif Əlizadə**
**Hüseyn Hüseynov**
**Vüqar Nəzərli**
**Xədicə Isgəndərli**
**Bijan Fəzlullahi**
*(ABŞ)*
**Murat Barkan**
**Behzat Gürkan**
*(Türkiyə)*
**Erhan Ozdəmir**
*(Türkiyə)*
**Bayram Kodaman**
*(Türkiyə)*
**Mətin Ozkul**
*(Türkiyə)*
**Elşən Əliyev**
**Venera Şərifzadə**
*(məsul katib)*

***Texniki heyət:***
**Zamin Əliyev**

***Korrektorlar:***
**Ayşən Hüseynova**
**Nisə Babayeva**

**EDITORIAL BOARD:**

**Akif Musayev**
***(editor in chief)***

**Eldar Kahramanov**
**Dunyamali Veliyev**
*(deputy editor in chief)*

**Ziyad Samedzadeh**
**Teymur Bunyadov**
**Asef Hagıyev**
**Ali Nuriyev**
**Selaheddin Khalilov**
**Yusif Mamedov**
**Telman Aliyev**
**Vilayet Quliyev**
**Xaleddin Ibrahimly**
**Rovshen Quliyev**
**Habil Qurbanov**
**Mais Aliyev**
**Hasan Alibeyly**
**Tofiq Veliyev**
**Akif Alizadeh**
**Hussein Husseinov**
**Vuqar Nazarli**
**Khadija Iskandarly**
**Bijan Fezlollahi**
*(USA)*
**Murat Barkan**
**Behzat Gurkan**
*(Turkey)*
**Erhan Ozdemir**
*(Turkey)*
**Bayram Kodaman**
*(Turkey)*
**Metin Ozkul**
*(Turkey)*
**Elshan Aliyev**
**Venera Sharifzadeh**
*(secretary responsible)*

***Technical staff:***
**Zamin Aliyev**

***Correctors:***
**Ayshan Huseynova**
**Nisa Babayeva**

**РЕДАКЦИОННЫЙ СОВЕТ:**

**Акиф Мусаев**
***(главный редактор)***

**Эльдар Кахраманов**
**Дуньямалы Велиев**
*(зам главного редактора)*

**Зияд Самедзаде**
**Теймур Бунядов**
**Асаф Гаджиев**
**Али Нуриев**
**Салахаддин Халилов**
**Юсиф Мамедов**
**Тельман Алиев**
**Вилаят Гулиев**
**Халеддин Ибрагимли**
**Ровшан Гулиев**
**Хабил Гурбанов**
**Маис Алиев**
**Гасан Алибейли**
**Тофик Велиев**
**Акиф Ализаде**
**Гусейн Гусейнов**
**Вугар Назарли**
**Хадиджа Искендерли**
**Бижан Фазлуллахи**
*(США)*
**Мурат Баркан**
**Бехзат Гюркан**
*(Турция)*
**Эрхан Оздемир**
*(Турция)*
**Байрам Кодаман**
*(Турция)*
**Метин Озкул**
*(Турция)*
**Эльшан Алиев**
**Венера Шарифзаде**
*(ответственный секретарь)*

***Технический персонал:***
**Замин Алиев**

***Корректоры:***
**Айшан Гусейнова**
**Ниса Бабаева**

***Redaksiyanın ünvanı:*** Bakı şəhəri, Yasamal ray, S.Dadaşov küçəsi, 84.

***Telefonlar:*** (994 12) 430 51 79, 430 42 82, ***Fax:*** (994 12) 430 49 29, 430 50 79

İnternet ünvanımız: ***www.au.edu.az*** e-mail: ***office@au.edu.az***

***Azərbaycan Universitetinin mətbəəsində çap olunmuşdur.***

***Çapa imzalanmışdır:*** 25.10.2014 Tiraj 500.

# MÜNDƏRİCAT

Eldar Qəhrəmanov
Gənclərin həyatı gələcəyin təməlidir.....5

**İQTİSAD ELMLƏRİ**

**■ REAL SEKTOR**
Malik Tağıyev
İqtisadiyyatın dövlət tənzimlənməsinin bir sıra elmi, nəzəri-metodoloji məsələləri və Azərbaycan modelinin xüsusiyyətləri.....14
Elçin Əkbərov
Turizmin növləri kontekstində Azərbaycanın turim sektorunun rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi.....23
Nəzrin Ələkbərova
Qloballaşma transmilli şirkətlərin inkişaf amili kimi.....30

**■ MALİYYƏ**
Vüqar Nəzərov
Sahibkarlığın maliyyə infrastrukturunun inkişafının əsas istiqamətləri.....37
Vüqar Nəzərov
Tədiyyə balansı və onun tərtib olunmasının nəzəri prinsipləri.....45
Rəna Hüseynova
İntellektual kapitalın müasir vəziyyəti və inkişaf meyilləri.....56
Taleh Məmmədov
Neft gəlirləri, büdcə xərcləri və inflyasiya.....64
Səbuhi Əliyev
Qanuni bank fəaliyyətinə mane olmanın ümumi cinayət-hüquqi xarakteristikası: cinayətin obyektiv cəhəti.....74

**■ İNSTİTUSİONAL SEKTOR**
Asəf Kazımov
İnsan resursları departamentinin funksional inkişaf dinamikası və ona təsir edən amillər.....88
Asif Heybətov
Klaster təşəbbüslərinin reallaşdırılmasının regional-iqtisadi inkişafa təsiri.....95

**■ FİLOLOGİYA ELMLƏRİ**
Yadigar Əliyev
"Kitabi-Dədə Qorqud"un dilində mürəkkəb sintatik bütövlər.....102
Xədicə Cəfərova
Neo-viktorian romanı postmodern janrı kimi.....106
Sadiq Qarayev
Çağdaş dövrdə roman janrının inkişaf xüsusiyyətləri.....114
Aytən Musayeva
Amerika ədəbiyyatında O.Henrinin yeri.....123

**■ BEYNƏLXALQ MÜNASİBƏTLƏR**
Nigar Əlizadə
Avropada İslamın meydana gəlməsinin sosial-fəlsəfi təhlili.....130
Qərib Əsgərov
Beynəlxalq təhlükəsizlik sistemi və terrorizm.....138
Sitarə Əliyeva
Reklamların formalaşma tarixindən.....144

**■ MAGİSTR TRİBUNASI**
Mələknaz Yusifova
Ernest Hemequey Azərbaycan dilində.....150
Rəna Əliyeva
Dialektlərin spesifik xüsusiyyətləri, coğrafi dialektlər.....154
Bəyim Əliyeva
İnterferensiya linqvistik tədqiqatların obyekti kimi.....159
Nərmin Quliyeva
ABŞ və Rusiyanın İranın nüvə proqramına dair mövqeyi.....165
Orxan Zülfüqarov
İsrail və onun ABŞ-da lobbisi: Dayaq, yoxsa yük?.....171

**■ TƏLƏBƏ TRİBUNASI**
Pərvin Arıxbəyli
Vergi sistemi və iqtisadiyyatda vergilərin rolu.....178

"İpək yolu" jurnalına məqalələrin təqdim olunma qaydaları.....183

# CONTENTS


Eldar Gahramanov
Formation of the youth is the faundation of the future ....... 5

**ECONOMIC**

**■ REAL SECTOR**
Malik Tagiyev
Government regulation of economy on a number of scientific, theoretical and methodological issues and characteristics of azerbaijan model ....... 14
Elchin Akbarov
A brief outlook to the tourism sphere of azerbaijan republic on the context of tourism types ....... 23
Nezrin Alekperova
Globalization as factor of development of transnational corporations ....... 30

**■ FINANCE**
Vugar Nazarov
Main directions of development of financial infrastructure of entrepreneurship ....... 37
Vugar Nazarov
Balance of payment and the theoretical principles of its composition ....... 45
Rena Huseynova
Current state and tendencies of development of the intellectual capital ....... 56
Taleh Mammadov
Oil revenues, budget expenditures and inflation ....... 64
Sabuhi Aliyev
Criminal law aspects of prevention of legal banking activity objective side of the crime ....... 74

**■ INSTITUTIONAL SECTORS**
Asaf Kazimov
The functional development dynamics of human resources department and impacting factors ....... 88
Asif Heybatov
Impact of the implementation of the cluster initiatives on regional economic development ....... 95

**■ INDUSTRY**
Yadigar Aliyev
Complex syntactical units in the language of "Kitaby Dada Gorgud" ....... 102
Khadija Jafarova
Neo-victorian novel as postmodern subgenre ....... 106
Sadig Garayev
The development features of the novel genre at the modern times ....... 114
Ayten Musayeva
O'Henry's role in American literature ....... 123

**■ INTERNATIONAL RELATIONS**
Nigar Alizadeh
Socio-philosophical analysis of the emergence of islam in europe ....... 130
Garib Askerov
System of international security and terrorism ....... 138
Sitara Aliyeva
The history of the formation of advertisements ....... 144

**■ TRIBUNE FOR GRADUATE STUDENTS**
Malaknaz Yusiphova
Ernest hemingwey in Azerbaijan language ....... 150
Rana Aliyeva
The specific features of dialects, geographic dialects ....... 154
Bayim Aliyeva
Interference as object of linguistic researches ....... 159
Nermin Guliyeva
Positions of U.S. and Russia on the nuclear program of Iran ....... 165
Orkhan Zulphugarov
Israel and its lobby in United States: stronghold or burden? ....... 171

**■ TRIBUNE FOR UNDERGRADUATE**
Parvin Arixbayly
Taxation system and the role of taxes in economy ....... 178

Rules of presentation of articles to the journal "Ipek yolu" ....... 183

# СОДЕРЖАНИЕ

Елдар Гахраманов
Формирование молодожи это фундамент будущего....5

ЭКОНОМИЧЕСКИЕ НАУКИ

■ РЕАЛЬНЫЙ СЕКТОР
Малик Тагиев
Некоторые научно, теоретические и методологические вопросы государственного регулирование экономики и особенности модели Азербайджана....14
Эльчин Акперов
Оценка конкурентоспособности туристического сектора азербайджана в контексте видов туризма....23
Незрин Алекперова
Глобализация как фактор развития транснациональных корпораций....30

■ ФИНАНСЫ
Вугар Назаров
Основные направления развития финансовой инфраструктуры предпринимательства....37
Вугар Назаров
Платежный баланс и теоретические принципы его составления....45
Рена Гусейнова
Современное состояние и тенденции развития интеллектуального капитала....56
Талех Маммедов
Доходы от продажи нефти, бюджетные расходы, инфляция....64
Сабухи Алиев
Общая уголовно-правовая характеристика препятствованию законной банковской деятельности:....74
объективная сторона преступления

■ ИНСТИТУЦИОНАЛЬНЫЙ СЕКТОР
Асаф Казимов
Динамика функционального развития департамента человеческих ресурсов и факторы, влияющие на это....88
Асиф Гейбатов
Влияние реализации кластерных инициатив на региональное экономическое развитие....95

■ ТОРГОВЛЯ
Ядигар Алиев
Сложная синтаксическая единица (на основе языка «Китаби-Деде Коркут»)....102
Хадиджа Джафарова
Неовикторианский роман как постмодерниcткий субжанр....106
Садых Караев
Особенности развития жанра романа на современном этапе....114
Айтен Мусаева
Место О.Генри в Американской литературе....123

■ МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ
Нигяр Ализаде
Социально-философский анализ появления ислама в европе....130
Гариб Аскеров
Система международной безопасности и терроризм....138
Ситара Алиева
Об истории формирования реклам....144

■ ТРИБУНА МАГИСТРАНТОВ
Мелекназ Юсифова
Эрнест хемингуэй в Азербайджанском языке....150
Рена Алиева
Специфические особенности диалектов, географические диалекты....154
Байим Алиева
Интерференции с точки зрения лингвистических зучений....159
Нармин Гулиева
Позиции США и Россия по ядерной программе Ирана....165
Орхан Зульфугаров
Израиль и его лобби в США: оплот или бремя?....171

■ ТРИБУНА СТУДЕНТОВ
Парвин Арыхбейли
Налоговая система и ëë роль в экономике....178

Правила приема статей в журнал «Ipek Yolu»....183

# NEO-VİKTORİAN ROMANI POSTMODERN JANR KİMİ

**Xədicə CƏFƏROVA**
*Azərbaycan Dillər Universiteti*

**Rəyçi:** fil.e.d., prof. Q.Quliyev
**Açar sözlər:** viktorian, neo-viktorian, postmodernizm

Mövzunun aktuallığı – Postmodernizm müasir ingilis romanına dərin kök sala bilməsə də, ingilislərin öz tarixi keçmişinə bağlılığı, hadisələrə daim tənqidi və bir qədər ironiyalı münasibəti, milli özünüdərk hissləri yeni bir janrın, neo-viktorianlığın yaranması ilə nəticələndi. Maraqlısı isə odur ki, neo-viktorian roman adlandıra bilməyəcəyimiz əsərlərdə belə viktorianlığın izlərinə rast gəlir, keçmiş ənənə ilə dialoqa girmək cəhdlərini görürük.

"İstər Fildinqin cəsur, səs-küylü romanı, istər Ostinin nəcib xarakterli ictimai komediyası, yaxud da Brontelərin tutqun və mistik məhəbbət romanları olsun; bunların hamısı həqiqətdə bizim başımıza gələnlərin yalnız zəif əks-sədası ola bilər" [1, s, 37].

Müasir ingilisin şüurunda viktorianlıq anlayışı, həmin dövrün ideallaşdırılması nostalji hisslərdən, Böyük Britaniyanın keçmiş qüdrətinə həsrətdən, onun estetik nailiyyətlərinə heyranlıqdan doğur və postmodern yazıçılar üçün dekonstruksiya mənbəyinə çevrilir. Viktorian dəyərlər, viktorian üslubu, viktorian düşüncə tərzi, centlmen kodeksi müasir viktorianlığın səhifələrində dəyişməz olaraq rekonstruksiya edilir. Viktorianlıq gah müəyyən təfəkkür tərzinə, dünyagörüşünə bərabər tutulur və müharibədən sonrakı Avropada əldə etdiyi mənfi mənanı (reqressivlik, emosional təmkinlilik, seksual əzilmə və köləlik, soyuqluq, qapalılıq) üzərindən atıb XX əsrin sonunda təqdirəlayiq məna kəsb edir, gah da müasir bəlaların kökündə duran hər cür geriliyin, qaragüruhun simvoluna çevrilir. Heç şübhə yoxdur ki, viktorian ədəbiyyatı İngiltərənin bütün sonrakı ədəbi ənənələrində mühüm iz qoymuşdur. Məhz buna görə də, onu haqlı olaraq, ingilis ədəbiyyatının qızıl fondu, dünya tarixinin ən parlaq səhifələrindən biri, yüksək klassika dövrü adlandırırlar. Lakin bu, heç də həmişə belə olmamışdır: "Bu üsullar bizim üsullarımız deyil (realist ənənə haqda), bu iş bizim işimiz deyil. Bizlər üçün bu ənənə məhv deməkdi, bu üsullar ölüm deməkdi" (Virciniya Vulf).

1966-cı ildə Cin Ris "Geniş Sarqas dənizi" əsərini Viktorian mif və hekayələri əsasında yazmaqla özünün də xəbəri olmadan sonradan Dana Şillerin neo-viktorian [2, s, 538] adlandıracağı yeni bir ədəbi hərəkatın əsasını qoymuş oldu. Bu əsər özü o qədər populyarlıq qazanmasa da, Con Faulzun 1969-cu ildə yazdığı "Fransız leytenantının qadını" Viktoriya dövrünə güclü maraq oyatdı və 1980-90-cı illərdə bu tipli bir çox əsərlər yazıldı ("Krişnapurun mühasirəsi" (1973), C.C.Farrel; "Osvald Fiş kim idi?" (1981), A.N.Vilson; "Londonun böyük yanğını" (1982), "Oskar Uayldın son vəsiyyəti" (1983), "Den Leno və Limhaus bədheybəti" (1994), P.Akroyd; "Oğrun baxan Tom" (1984), H.Ceykobson; "Yaxşı iş" (1988), D.Loc; "Beşlik" (1989), Ç.Palliser; "Xanımın qulluqçusu" (1990), M.Foster; "Qırmızı mətbəxdə" (1990), M.Roberts; "Mübtəlalıq" (1990) və "Mələklər və həşəratlar" (1992),

A.S.Bayett; "Ağıl şəhəri" (1991), P.Livli; "Yazıq məxluqlar" (1992), A.Qrey; "Şirin Temz" (1992) və "İngilis sərnişinləri" (2000), M.Nil; "Əbədiyyətə kimi" (1992), Q.Svift; "Tess" (1993), E.Tennant; "Panterlərlə şam yeməyi" (1996), T.Holand; "Tennisonun hədiyyəsi" (1996), L.Trass; "Piti" (1997), C.Bakston; "Sahib Corci" (1997), B.Beynbric; "Yeraltının adamı" (1997), M.Cekson; "Beybi gəmisi" (1998), L.Censen; "Məhdudiyyət" (1998), K.Makmahon; "Yaxınlıq" (1999), S.Uoters; "Ceyms Miranda Barri" (1999), P.Danker; "Laura Blundi" (2000), C.Mayerson; "Şarlot: Ceyn Eyrin son səyahəti" (2000), D.M.Tomas) və hələ yazılmaqdadır [3, s, 5-6].

Dekonstruksiya üçün məhz Viktoriya dövrünün seçilməsinin əsas səbəbi kimi bir tərəfdən onun Britaniya tarixində qızıl dövr olması, digər tərəfdən isə bu dövrdə cəmiyyətin pis davrandığı nümayəndələrinə qarşı (bunlar əsasən qadınlar, aşağı təbəqənin insanları, yaxud da homoseksuallar idi) ədalətsiz rəftarı pisləmək və onların həyatını işıqlandırmaq idi.

Neo-viktorian romanın yüksəlişi 1980-90-cı illərə təsadüf edir ki, bu zaman kəsiyi də siyasi dürüstlük hərəkatının (ayrı-seçkilik yaradan, heysiyyətə toxunan və insanın fiziki qüsurunu vurğulayan söz və hərəkətlərdən qaçınma. X.C.) başlanğıcı ilə üst-üstə düşür. Siyasi dürüstlük azlıqda qalan insanların müdafiəsindən ibarətdir: ictimai, cinsi, irqi, etnik ayrı-seçkilik qurbanlarının, fiziki, yaxud da əqli cəhətdən şikəstlərin, cəmiyyətin qəbul etmədiyi və tarixin günah keçilərinin. Bu cür insanların haqlarının müdafiəsinə, onlar üçün üstünlüklər qazanılmasına və onların xeyrinə qanunlar qəbul edilməsinə nail olmaqla siyasi dürüstlük sadəcə olaraq "təsir" olmaqla qalmayıb məcburi münasibətə çevrildi. İncəsənətdə bu hegemoniya marginal, periferiya və eksentriklərin zəruri təsviri ilə nəticələndi – bu zaman əsərin ideal qəhrəmanı olaraq məhrum olunmuşları, şikəstləri, zəncilələri, lezbiləri seçmək ənənə halını aldı. Bir çox tənqidçilər qeyd edir ki, siyasi dürüstlüyün ən zərərli təsiri marginal olanın mərkəzə qoyulması, spesifik olanın normaya çevirmək cəhdidir. Bu ideoloji hərəkat sosial qrupların əsaslandığı fərqləri silməyə və ya onların əhəmiyyətini heçə endirməyə cəhd edir. Neo-viktorian romanın siyasi dürüstlük hərəkatı ilə eyni vaxtda inkişafı arasında əlaqə danılmazdır. Viktorian dövrü Britaniya imperializminin yüksəlişi dövrü idi və viktorian romanı imperialistik münasibətlərin, xüsusilə də irqi və etnik zehniyyətin güclənməsinə xidmət edirdi. Tarixin dili ilə söyləsək, Viktoriya dövrü "bərabərsizliklərin zəfəri" və xüsusilə də homoseksuallara qarşı repressiya ilə xarakterizə olunurdu [3, s, 167-68].

Viktorian ənənənin bu cür formada dirçəldilməsi, keçmişə bəzən riqqətlə, bəzən də ironiya ilə yanaşılması, onun dekonstruksiya edilməsi neo-viktorian romanları postmodernizm dalğasına qovuşdurur. Bu isə özünü bariz şəkildə eyni bir əsərdə pastiş və parodiyanın birgə mövcudluğunda göstərir: "Pastişin təqlidiliyini parodiyanın təhrifediciliyi tamamlayır" [3, s, 89]. Hamının çox yaxşı tanıdığı dünyaya, bədii ədəbiyyatda belə olsa, yenidən qayıdış nostaljik zövq verir, bu isə neo-viktorian romanların müvəffəqiyyətinin ilkin şərtini təşkil edir. Müasir yazıçıya görə, viktorian romanında "boşluqlar" vardır ki, onları yenidən yazmaqla oxucunun intizarda qaldığı məsələlərə geniş yer vermək və romanı "tamamlamaq" mümkündür. Ona görə də yazıçıların viktorian romanlara müraciətini, hətta başlıq seçərkən eyniadlı romana eyhamını opportunizm kimi qiymətləndirməmək olmur ("Tennisonun

hədiyyəsi", "Tess", "Oskar Uayldın son vəsiyyəti", "Şarlot: Ceyn Eyrin son səyahəti"). Neo-viktorian romanların digər bir qolunda isə viktorian konteksti götürülərək tamamilə yeni əhvalat nəql olunsa da, bu romanları "ruh əkizləri" olmadan şərh etmək olmur. Məsələn, Devid Locun "Yaxşı iş" romanını Elizabet Qaskellin "Şimal və Cənub", Çarlz Palliserin "Beşlik" əsərini Çarlz Dikkensin "Soyuq ev" əsərini oxumadan anlamaq mümkün deyil.

Kristian Qutlebenin "Nostaljik postmodenizm. Viktorian ənənəsi və müasir Britaniya romanı" [3] adlı kitabı boyunca səpələnmiş fikirləri bir yerə toplamağa çalışsaq, neo-viktorian romanının aşağıdakı xüsusiyyətlərə malik olması qənaətinə gəlmiş olarıq:

1) Postmodern yazıçılar öz əsərlərində müasiri olduqları yazarlardan epiqraflar gətirməsələr də, neo-viktorian romanlarda viktorian romanlarda olduğu kimi eyni dövrün yazıçılarından çoxlu epiqraflar var. Bu, özlüyündə sitat gətirilən əsərlərin təkzibedilməz dəyəri, naqislik kompleksi, yaxud da müasir ədəbiyyata müxalifliklə izah oluna bilər. Bu cür sitatlar, şübhəsiz ki, onların istifadə olunduqları əsərə müəllifinin nüfuzunu və hörmətini gətirir.

2) Neo-viktorian əsərlərdə pastişdən geniş istifadə (üslubun təqlidi) olunur.

3) Postmodernizmin ruhuna uyğun olaraq əsərlərdə istinad olunan sənədlərin əslində uydurma, saxta olması üzə çıxır. Məsələn, M.Fosterin "Xanımın qulluqçusu" əsərində xanım Brauninqin qulluqçusuna yazdığı məktub.

4) Keçmişə ironiyalı münasibət. Məsələn, yuxarıda sitat gətirilən əsərdə Uilson xanımının xarici dünya ilə təmasının cüzi olduğunu bilərək özü ilə birgə işləyən digər nökərə deyir: "Miss Elizabetin acından ölən və soyuqdan əziyyət çəkən kasıb uşaqlar haqqındakı şeirini oxumusan? Çox gözəl şeirdi, amma bu məqamda istər-istəməz gözümün özünə toyuq döşü yeyən Flaş (Xanım Brauninqin iti) düşür".

5) XIX əsr qəhrəmanlarının (məs., Oliver Tvist, Balca Dorrit, yaxud da Ceyn Eyr) əsərin sonunda zadəgan mənşəli olması üzə çıxdığı halda, onların XX əsr təqlidçiləri təbiətən heç bir ali pilləyə məxsus olmur. Burada, C.Faulzun "Fransız leytenantının qadını" əsərində mənşəyi bilinməyən, lakin hamının yüngül əxlaqlı qadın kimi tanıdığı Sara Vudrafı, A.S.Bayyetin "Morfo Yuciniya" əsərindəki "vulqar qana malik" Uilyam Adamsonu xatırlamaq yerinə düşər.

6) İdeoloji, etik və bəlkə də, ticari səbəblərdən cəmiyyətin qəbul etmədiyi insanların Viktoriya dövründə əsərin baş qəhrəmanı olması ağlasığmaz olduğu halda, neo-viktorian romanlarda "siyasi dürüstlük" ərəfəsində etnik, sosial və ya cinsi mənşəyi üzündən daim təzyiqlərə məruz qalan insanların əsərin mərkəzində dayanması adi bir haldır.

7) Neo-viktorian romanlarda viktorian romanlara xas "qalmaqal" vardır. Məs., A.S.Bayyetin "Mübtəlalıq" əsəri iki məşhur viktorian şairinin nigahdankənar övladını ortaya qoyur, E.Tenantın "Tess", M.Nilin "Şirin Temz" və C.Mayersin "Laura Blandi" əsərləri insest problemini işıqlandırır, C.Bakston "Piti" əsərində qəhrəmanın sonda qadın olması ortaya çıxır, P.Dankerin "Ceyms Miranda Barri" əsərində qadın qəhrəman bütün ömrünü kişi qiyafəsində həkim kimi yaşayır.

8) Neo-viktorian romanlarda viktorian romanlarda olduğu kimi tarixi faktlar, dövrün adət-ənənəsi, xüsusilə də məkan və zamanın dəqiq xüsusiyyətləri, məişəti öz əksini tapır. Bu cür

əsərlər sələfləri kimi: a) təhkiyəni əhvalatın baş verdiyi vaxtı və yeri göstərməklə başlayır; b) növbəti addım obrazların təqdimatı olub, əsasən cəmiyyətin nüfuzlu üzvlərinin təsviridir: din xadimi, zadəganların nümayəndəsi, elm adamı, hər hansı bir sənətkar və s.; c) bundan sonra müəllif cəmiyyətin qaymaqlarına, eləcə də əsərin qəhrəmanlarına qarşı açıq-aşkar sayğısızlıq sərgiləyir. Səbəb isə odur ki, viktorian romanından fərqli olaraq müasir romanın məqsədi obrazların apardığı ali mübarizənin, ümid, yaxud da nailiyyətlərinin ülviliyini nümayiş etdirmək olmayıb onların yanlışlıqları üzərində dayanmaqdır və harda səhv etdiklərini göstərməkdir ki, bunlar bir daha təkrarlanmasın. Bu cür ifşaediciliyin didaktik əhəmiyyəti komediyanın tipik elementləri ilə yanaşı getdiyindən oxucuda gülüş doğurur.

9) Neo-viktorian romanda oxucu ənənəvi qəhrəmanın ictimai model və mənəvi bələdçi kimi dekonstruksiyası ilə qarşılaşır. Bu cür romanlar viktorian romanlardan fərqli olaraq qəhrəmanın mənəvi cəhətdən kamilləşməsi ideyasını və "insanların ibrət götürməsi və daha yaxşı insan olmaları üçün hadisələri şərh edən" hazır düsturları rədd edir. "Piti" əsərində Avqust Koufinin şagirdliyi onun cinayətkar eksperimentləri ilə nəticələnir, "Ceyms Miranda Barri"də qəhrəmanın təhsili onu ömrünün sonunadək fırıldaqçı həyatına sürükləyir, "Beybi gəmisi" əsərinin viktorian qəhrəmanı isə kollec təhsili və dini inanclarına baxamayaraq, sirk ədəbazına çevrilir. Bu əsərlərdə inkişaf, onun tarixi, ictimai və əxlaqi dəyəri ələ salınır, qəhrəmanlar heç bir məna daşımır, onlar sadəcə olaraq postmodernsayağı təqdim olunurlar və "heç bir şeyin mərkəzi"ni təşkil etmirlər. Günahsızlıqdan təcrübəyə, yaxud da sadəlövhlükdən müdrikliyə keçidi boşluqdan mənəviyyatsızlığa, mənasızlığa, yaxud da dəliliyə keçid əvəzləyir, bununla da dünyaya müasir baxış öz təsdiqini tapır; "nizami sistemlərin parçalanması, reallığa ənənəvi baxışların çöküşü, müəyyənliyin aşınması".

10) Postmodernizmin bir çox xüsusiyyətləri:

a) Postmodernizm metatəhkiyəsinə xas müxtəlif ontoloji səviyyələrdə oxucu il oyun. Məs., D.Locun "Yaxşı iş" əsərində müəllif əsərin qəhrəmanı Robini təqdim edərkən realist ənənədən uzaqlaşaraq sözügedən dekonstruktivist qəhrəmanı ilə bağlı özünün təhkiyə probleminə toxunur: "bu obraz, mənim üçün nə qədər qəribə səslənsə də, deməliyəm ki, obraz konsepsiyasına inanmır". "Fransız leytenantının qadını" əsərinin 13-cü fəslində Faulz deyir: "Mənim danışdığım hekayə tamamilə uydurmadır. Bu obrazlar mənim təxəyyülümdən qıraqda heç vaxt mövcud olmayıblar". Əsərin 55-ci fəslində Çarlzla eyni qatara minən və onun qarşısında yer alan müəllif-təhkiyəçi ona acıqla baxır və düşünür: "İndi mən səninlə nə edim axı?" Bu cür müdaxilənin hər hansı bir funksiyasından söhbət gedə bilməz, çünki o özü ontoloji mümkünsüzlüyü ifadə edir.

b) Təhkiyənin heterogenliyi, müxtəlifformalılığı, çoxdiskurluluq (məs., "Mübtəlalıq"da məktublar, gündəlikdən parçalar, tərcümeyi-hallar, şeirlər və s. vardır).

c) Təhkiyənin qırılması, "formal və üslubi heteroqlossia (bədii əsərdə iki və ya ondan çox nöqteyi-nəzərin ifadə olunması)".

d) Fraqmentallıq.

e) Janrların müxtəlifliyi, "yüksək və alçaq" mədəniyyətlərarası fərqlərin silinməsi və s.

11) Viktorian romanlar kimi, neo-viktorian romanlar da özündə əyləncə və nəsihət ele-

mentlərini birləşdirməyə çalışaraq ictimai-tarixi məlumatları ötürür. Təbii olaraq, belə əsərlər viktorian yazarların yayındığı, görməməzlikdən gəldiyi səhnələri də özündə ehtiva edir ki, bu da müasir oxucunun zövqünü oxşamaq, onun tələbinə cavab vermək məqsədi güdür, bu isə özlüyündə viktorian romanın mərkəzində duran başlıca ideyadır.

12) Viktorian ənənəni gözdən salmaq, ifşa etmək üçün neo-viktorian roman ilk növbədə onun aparıcı nümayəndələrini hədəfə alır. Bu yolla müasir müəlliflər keçmişin miflərinə özlərinin alternativlərini yaradır, qaranlıq tərəflərə işıq salırlar. Məs., H.Ceykobsonun "Oğrun baxan Tom" romanında Tomas Hardi hərfən gözümüz önündə yenidən canlanır; məlum olur ki, əsərin qəhrəmanı Barni əslində viktorian yazıçının reinkarnasiya olunmuş şəklidir. T.Hardi "Tess" əsərində tənqid olunur: "yaraşıqlı, soyuqqanlı, Rafaelit dövrünəqədərki mələkləri xatırladan yüksək düşünən riyakar". Alfred Tennison A.S.Bayyetin "Nigah mələyi" və L.Trassın "Tennisonun hədiyyəsi" əsərlərində, Elizabet Barret Brauninq M.Fosterin "Xanımın qulluqçusu", Darvin "Cənab Darvinin nişançısı" əsərində müxtəlif obrazlar tərəfindən "ifşa" olunur.

13) Neo-viktorian əsərlərə konformizm, riyakarlıq və tabu yaddır. Buna ən gözəl nümunə D.M.Tomasın "Şarlot: Ceyn Eyrin sonuncu səyahəti" əsəridir. Göründüyü kimi, neo-viktorian romanlar viktorian dövrünün əfsanəyə çevrilmiş nümayəndlərini məsxərəyə qoymaqla qalmayıb keçmişin bütün bədii ənənəsini darmadağın edir.

14) Neo-viktorian romanlar viktorian dövrünün ictimai və intim münasibətlərdəki ədalətsizliklərini pisləyərək təsvir etdikləri dünyaya qarşı tənqidi mövqedə dururlar. Müasir roman viktorian dövrünə ən çox gender bərabərsizliyi məsələsində hücum edir. "Məhdudiyyət" əsərində qadınlara qarşı qərəzli münasibəti keşiş Riddel bu cür ifadə edir: "Ağıl sahibi. Pah! Qadınlar nisbi varlıqlardır, Miss Hardemon. Onlar gözəl görünməli və sakitliyə riayət etməlidirlər. Biz onların əksəriyyətindən bu ikisindən artığını gözləyə bilmərik". Təbii ki, romanda keşişi hörmətdən salmaq, Miss Hardemonun parlaq zəkasını vurğulamaq üçün hər bir şey edilir.

15) Bədii cəhətdən yenidən canlandırdıqları ənənədə neo-viktorian romanlar özünün prioritetlərini müəyyənləşdirir: kənarda qalan önə keçir, eşidilməyən səsləndirilir, gizli qalan aşkara çıxır, marginal mərkəzə dönür. Keçmişin unutduqlarını yada salmaq və onları işıqlandırmaq postmodernizmin başlıca xüsusiyyətlərindəndir.

16) Postmodernizmin viktorian romanının qaranlıq tərəflərini, girişin qadağan olduğu sahələrini və tabu mövzularını araşdırması sabitliyi, xristian dünyasının dəyərlərini dağıdır və oxucunu hər şeyə istehza ilə yanaşan Allahsız, hər hansı bir trassendent əsasdan məhrum postmodern vəziyyətlə üz-üzə qoyur.

17) Müasir dövrdə hər cür müəyyənliyin itirildiyini bədii ədəbiyyatda ifadə etmək üçün postmodern təhkiyə sadə, yaxud da asan şərh olunan sonluqdan imtina edir. Nəticədə, bədii əsər hər cür illüziyanı qıran mümkün sonluqlarla bitir, hər şey oxucunun öz iradəsinə buraxılır. Faulz "Fransız leytenantının qadını" əsərində oxucunu üç müxtəlif sonluqla baş-başa buraxır. P.Akroydun "Elizabet Krinin məhkəməsi" əsərinin sonunda məlum olur ki, qatilin gündəlikləri onun arvadı tərəfindən saxtalaşdırılıb, E.Tenantın "Tess" əsərində əvvəldən-axıra kimi

feminist olan qəhrəmanın sonda ata və babasının iyrənc əməllərinə ortaq olması üzə çıxanda oxucu nəyə inanacağını bilmir. A.Qreyin "Yazıq məxluqlar" əsəri isə eyni bir hadisənin müxtəlif təhkiyəçilər tərəfindən bir-birilə heç cür uyuşmayan, daban-dabana zidd şəkildə işıqlandırılmasından ibarətdir: müəllif əlyazmanın həqiqiliyini iddia edir, onun tarixçi dostu düşünür ki, bu, sadəcə olaraq qara yumordur, müəllif həkimin təhkiyəsini doğruluğuna inanıb, onun arvadının yazılarını "ağlını itirmiş qadının məktubları" hesab edir, tarixçi bununla razılaşmır və s.

Burada bir qədər haşiyəyə çıxıb iki növ roman arasındakı təhkiyə fərqlərinə nəzər salmaq yerinə düşər. Romanda bir təhkiyəçinin olması və əsərin əvvəldən sonadək onun nəzarəti altında olması obrazların taleyinin dəqiq və rabitəli təsvirinə imkan verir. Burdan isə belə bir nəticə çıxarmaq olar ki, viktorian romanın təhkiyəsi insanın nizami sistem yaratmaq qüvvəsinə inamı ifadə edən dünyagörüşü təmsil edir. Dəqiq başlanğıc və sonluqların olması biliyə inam və biliyi ötürməyin mümkünlüyündən xəbər verir. Və nəhayət, təhkiyənin qapalı dairə və sistemli şəkildə bir nəfər tərəfindən qurulmasını insanın fövqəlbəşəri qüvvə ilə əlaqələndirmək olar. Vahid təhkiyənin olmasının digər bir məntiqi nəticəsi əsər boyunca eyni bir prinsipdən çıxış edilməsi, yalnız bir nöqteyi-nəzərin olmasıdır. Digər bir tərəfdən isə neo-viktorian roman istənilən sabitliyə qarşı güclü skeptisizm nümayiş etdirir, onun ifadə etdiyi qeyri-müəyyənlik isə postmodernizmdə olduğu kimi epistemoloji xarakter daşıyır. Təhkiyəçilərin sayının artırılması, bununla bərabər nöqteyi-nəzərlərin artması onun göstərir ki, hekayənin bütün variantları müstəqildir; heç bir təhkiyəçi hadisələrin tam şəkildə necə baş verməsindən xəbərdar deyil, ona görə də bu versiyalar sadəcə olaraq hadisələrin mümkün gedişatının bəzi formalarıdır. Bu xüsusilə də tarixi bərpa etmək istəyən romanlara aid edilə bilər: hadisələrin müxtəlif, bəzən isə zidd variantları tarixi biliyi əldə etməyin mümkünsüzlüyünə işarə edir. Buna görə də belə demək olar ki, "postmodern tarixi roman"larda metanarrativ yoxdur, bu cür əsərlərdə yalnız şəxsiyyətlərin həyatından parçalar, bir neçə hekayə və tarixi xronika vardır. Fraqmentallıq burada nizamın, ahəngdarlığın iflasını, xaos və entropiyanın qələbəsini bildirir. Bu həmçinin, vahid və ehkama söykənən şərhlərdən imtina, çoxsaylı nöqteyi-nəzərlərin, müxtəlif həqiqətlərin və nisbiliyin təcəssümüdür. Fraqmentallığa bütün neo-viktorian romanlarda rast gəlmək olar [3, s, 139-142].

Neo-viktorian romanlar ümumi abı-havasına görə viktorian romanlardan kəskin şəkildə fərqlənir. Viktorian romanlarda nağıllarda olduğu kimi müsbət və mənfi qəhrəmanlar, eləcə də neytral obrazlar vardır; burada qəhrəman nə istədiyini bilir və sonda layiq olduğu mükafatı alır, yaxud da acı aqibətlə üzləşir. Təhkiyəçi isə bizi hər zaman istiqamətləndirir, nəyin yaxşı, nəyin isə pis olduğunu deyir. Müasir ingilis romanında isə bunlara rast gəlmək olmur, ülvi hisslər və bəşəri dəyərlər sanki önəm daşımır artıq. Bəs əslində necədir? Bu suala cavab tapmaq üçün əslən ingilis olan ədəbiyyatçı və mədəniyyətşünas Karen Hyuittdən sitat gətirmək istəyirəm: "Yazıçılar artıq "müsbət" və "mənfi" obraz kateqoriyaları ilə mühakimə yürütmürlər. "Müsbət" və "mənfi" kateqoriyaları yalnız o halda mümkündür ki, cəmiyyət sadəcə olaraq dəyişməz olan hər hansı bir dəyərlər qrupu barəsində razılaşmaqla qalmayıb, həm də bu dəyərləri paylaşdığınız üçün sizi hansı mükafatın gözlədiyini də elan edir. Liberal

demokratiyanın hökm sürdüyü bir ölkədə isə bunu təsəvvür etmək belə çətindir. Müəlliflərin tərəfində durduqları və müdafiə etdikləri isə xeyirxahlıq və səxavətlilikdir. Onlar bizə anlatmağa çalışırlar ki, həyatımızda gətirdiyimiz qarmaqarışıqlıq üçün yalnız özümüz məsuliyyət daşımalıyıq" [4].

**Ədəbiyyat:**

1. Thomas D.M. "Charlotte: The Final Journey of Jane Eyre", London: "Duck Editions", 2000, 288 s.

2. Shiller D. "The Redemptive Past in the Neo-Victorian Novel." Studies in the Novel 29.4 (1997): 538-560.

3. Gutleben C. "Nostalgic Postmodernism. The Victorian Tradition and the Contemporary British Novel", Amserdam: "Rodopi", 2013, 248 s.

4. http://magazines.russ.ru/voplit/2007/5/h3.html - 12 noyabr 2014, 22:00

**Abstract**

**NEO-VICTORIAN NOVEL AS POSTMODERN SUBGENRE**

**Khadija JAFAROVA**

*PhD student of Azerbaijan University of Languages*

**Key words:** Victorian, neo-Victorian, postmodernism

The purpose in writing this article is to explore the history, characteristics and development of neo-Victorian novels and thus make their affinity with postmodernism overt. Neo-Victorian novels shed 'postmodern' light on the 19th century Victorian conventions. They are usually considered a subgenre of postmodernism for their duality; they explore Victorian period and revive Victorian novel while simultaneously interpret it from a postmodern point of view. The article focuses on detailed characteristics of neo-Victorian novels and provides numerous examples from fiction.

**Резюме**

**НЕОВИКТОРИАНСКИЙ РОМАН КАК ПОСТМОДЕРНИСТКИЙ СУБЖАНР**

**Хадиджа ДЖАФАРОВА**

*докторант Университета Языков*

**Ключевые слова:** викторианский, неовикторианский, постмодернизм

Целью статьи является рассмотреть историю неовикторианского романа, его особенности, развитие, и таким образом выявить его родственность с постмодернизмом. Неовикторианский роман проливает "постмодерниcткий" свет на реалистическую тра-

дицию XIX века. Он обычно считается субжанром постмодернизма за свою двойную природу; в нем присуствует викторианская тематика и роман, и в тоже время интерпретация с точки зрения постмодерна. Статья дает тщательные характеристики нео-викторианского романа и подкрепляет их с многочисленными примерами из художественных произведений.